Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

ARTİ
Azərbaycan Respublikasının Təhsil İnstitutu

MÜTDA
Məktəbəqədər və ümumi təhsil üzrə Dövlət Agentliyi

birbank

RFO

RESPUBLİKA FƏNN OLİMPİADALARI

RAYON (ŞƏHƏR) MƏRHƏLƏSİ

Ad ______________________________ Soyad ______________________________

## 8-ci sinif

# AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYATI

## Azərbaycan bölməsi

- İmtahan müddəti — **150 dəqiqədir**.
- Hər səhv cavab öz dəyərinin **1/4-ni aparır**.
- Sualların hər biri **5 balla** qiymətləndirilir.
- Kitabçada **20 sual** mövcuddur.
- Nəzarətçilərə cavab kağızları təqdim olunur.
- Rayon (şəhər) mərhələsinin nəticələrini **03.02.2026**-cı il tarixindən etibarən **portal.edu.az** platformasında (QR kodu skan edərək) şəxsi kabinetinizdən və təhsil aldığınız ümumtəhsil müəssisəsindən öyrənə bilərsiniz.

Kitabçamda texniki qüsur (çap olunmamış, aydın olmayan səhifə, natamam suallar) olmadığını və məlumatların (sinif, fənn, bölmə) mənim məlumatlarıma uyğunluq təşkil etdiyini təsdiq edirəm.

İmza: ______________________

**1-3 saylı tapşırıqları mətnə əsasən cavablandırın.**

I. Albaniyanın əhalisi türkdilli və qafqazdilli tayfaların birliyindən ibarət idi. II. Albaniya ərazisində albanlardan başqa leqlər, kadusilər, kaspilər, utilər, qarqarlar və b. tayfalar da yaşamışlar. III. Bu tayfaların arasında albanlar çoxluq təşkil edirdilər. IV. Qədim Yunan tarixçisi Strabon Kür çayının Albaniya ərazisi ilə axaraq dənizə töküldüyünü və Kaspiana vilayətinin Albaniyanın tərkibinə daxil olduğunu qeyd edirdi. V. Kürün töküldüyü Xəzər dənizi alban dənizi də adlanırdı. VI. Strabonun məlumatından Albaniyanın mərkəzləşmiş dövlət olması aydın görünürdü. VII. Hazırda Azərbaycanda qafqazdilli tayfalar da yaşayırlar. VIII. Bunlar Qəbələ rayonunun Nic kəndində utilər, Quba rayonunun Xınalıq kəndində xınalıqlılar, Buduq kəndində buduqlulardır.

**1. Mətni üç abzasa bölsək, ikinci və üçüncü abzaslar hansı cümlələrlə başlayar?**

A) III və VII B) IV və VI C) III və V
D) IV və VII E) II və VIII

**2. Hansı cümlələrin yerini dəyişsək, məntiqi ardıcıllıq bərpa olunar?**

A) I və II B) II və III C) IV və V
D) V və VI E) IV və VI

**3. Hansı cümlələrdə sözün ilk hərfinin yazılması ilə bağlı orfoqrafik səhvə yol verilib?** (Tam cavabı tapın.)

A) II və III B) II və IV C) IV və V
D) V və VI E) VII və VIII

**4. Hansı sözlərin yeri dəyişsə, cavab düzgün olar:**

| | Yanlış | | Doğru |
|---|---|---|---|
| A) | aidiyyət | deyil | aidiyyat |
| B) | verməşil | deyil | vermişel |
| C) | abu-hava | deyil | ab-hava |
| D) | səliqə-səhman | deyil | səliqə-sahman |
| E) | mundar | deyil | murdar |

**5. Hansı sözlərin tərkibinə görə təhlili "ləngidildik" sözü ilə eynidir?**

1. qaçırtdırmışlar
2.boyaqçılığın
3.yelləncəklərimiz
4.yenilikçilərdəndir
5.sıxlaşdırılmışdır
6.tullanılıbdır

A) 2,3,6
B) 1,3,4,6
C) 1,2,5,6
D) 2,4,5
E) 1,3,5

**6. Cümlənin sintaktik təhlili ilə bağlı cümlə üzvlərinin ardıcıllığını müəyyən edin.**

*"Payız səhərinin şəffaf işığında Batabat gölünün möhtəşəm mənzərəsinə ilk dəfə diqqətlə baxanda mənim yaxın dostum Elşənin heyrətdən ağzı açıla qaldı."*

A) zərflik, xəbər
B) zərlik, zərflik, mübtəda, xəbər
C) zərflik, mübtəda, xəbər
D) zərflik, təyin, xəbər
E) zərflik, təyin, mübtəda, xəbər

**7. Sifət isimləşərkən aşağıdakı xüsusiyyətlərdən hansıları daşıya bilməz?**

1. Hara sualına cavab verir.
2. İsmi xəbər olur.
3. Ümumi və xüsusi olur.
4. Morfoloji təhlildə sifət olur.
5. Mücərrəd və konkret olur.

A) 2, 4 B) 1, 3, 5 C) 1, 3, 4
D) 3, 4, 5 E) 1, 2, 5

**8. Hansı bənddəki cümlədən ilk söz çıxarılsa, cümlə üzvlərinin sayında dəyişiklik baş verməz?**
A) İndi, həqiqətən, Sevdanın ona yazığı gəldi.
B) Həyatın belə amansız oyunu artıq Mürsəli yormuşdu.
C) Müdirin dünənki hadisə barədə ağızdolusu danışmağı təəccüblü idi.
D) Uşağın çiyələkli dondurması əriyərək barmaqlarından üzüaşağı axırdı.
E) Sabirin satirik şeirləri Azərbaycan ədəbiyyatında mühüm yer tutur.

**9. Fərqləndirilmiş sözlərin hansı nitq hissəsi olduğunu ardıcıllıqla göstərin**.
1. **Belə** oxusan, lazım olan balı toplaya bilməyəcəksən.
2. **Belə** sözləri gərək yadda saxlayasan.
3. Mən **belə** bəzən onu tanımaqda çətinlik çəkirəm.
A) zərf, əvəzlik, ədat
B) zərf, sifət, ədat
C) əvəzlik, əvəzlik, ədat
D) sifət, zərf, ədat
E) sifət, əvəzlik, ədat

**10. Şəxsə görə uzlaşmanın pozulduğu cümlə hansıdır?**
A) Ay işığında bərq vuran yarpaqlar sanki pıçıldaşırdı.
B) Bu evin sahibi mənəm, mən də nə elədiyimi bilirəm.
C) Hər ikisi dinməz-söyləməz yola düşdü.
D) Ləpələr şıltaqlıqla atılıb-düşür, yarğanın sarı torpağını yalayırdı.
E) Atlar qəfil hücumdan diksinib irəli atıldılar.

**11.** *Tarixçilərin tez-tez ifadə etdiyi kimi, keçmişi xatırlaya bilməyənlər onu təkrar etmək məcburiyyətində qalır.*

**Aşağıdakılardan hansı bu cümlə ilə mənaca daha yaxındır?**

A) Keçmişin mirası yalnız daim xatırladılmaqla canlı saxlanıla bilər.
B) Keçmişdə baş verənlər zaman keçdikcə daha anlaşılan olur.
C) Keçmiş yalnız gələcəyə uyğunlaşdırıla bildiyi qədər dəyər qazanır.
D) Keçmişdən uzaqlaşa bilməyənlər köhnəyə ilişib gələcəyi qaçırırlar.
E) Keçmişdə olanlar indiki zamana və gələcəyə bələdçilik edir.

**12. Nümunənin morfoloji təhlili ilə bağlı yanlış fikirləri seçin.**
*Mənə bir sərgi salonu verin!*
*Orada bir insan şəkli asacağam - adi bir insan.*

1. Hal şəkilçisi ilə işlənmiş sözlər eyni nitq hissəsinə aid deyil.
2. Quruluşca düzəltmə söz adlıq haldadır.
3. Feillər eyni qrammatik məna növündə və feilin eyni şəklindədir.
4. Nümunədə köməkçi nitq hissələrindən yalnız ədat işlənib.
5. Sifət işlənmə yerinə görə azaltma dərəcəsində ola bilsə də, çoxaltma dərəcəsində olmur.
6. İsimlərdən biri işlənmə yerindən asılı olaraq sifət kimi düşünülə bilər.
A) 1, 3, 5 B) 2, 3, 5 C) 1, 4, 6
D) 2, 4, 6 E) 1, 2, 4

**13. S.S.Axundovun “Nurəddin” əsərinə əsasən verilmiş səbəb-nəticə münasibətinə görə uyğunsuzluğu müəyyən edin.**

A) **Səbəb:** Gülpəri qəyyum olmaq və var-dövlətə sahib çıxmaq istəyirdi.
**Nəticə:** Hacı Nəsirin ölümündən sonra Nurəddinlə mehriban davranmağa başladı.

B) **Səbəb:** Nurəddin Cənnətəliyə kömək etmək istədi.
**Nəticə:** Cənnətəli bağban oldu.

C) **Səbəb:** Əmiraslan Nurəddini öldürmək istədi.
**Nəticə:** Nurəddin meşəyə qaçdı.

D) **Səbəb:** Rəhim Nurəddini oğulluğa götürmək istəyirdi.
**Nəticə:** Rəhim Nurəddinə kömək etdi.

E) **Səbəb:** Gülpəri Nurəddini döydü.
**Nəticə:** Hacı Nəsir Gülpərini evdən qovmaq istədi.

**14. Bədii əsərdə insanın ictimai varlıq kimi təsvirinə *aid deyil*:**

A) şəxsiyyəti
B) fiziki görünüşünün detallı təsviri
C) davranışı
D) maraqları
E) işi, gündəlik fəaliyyəti

**15. Mövzu baxımından aşağıdakı əsərlərdən biri fərqlidir:**

| | VƏTƏN SEVGİSİ | UŞAQ TALEYİ |
|---|---|---|
| A | Zahid Xəlil “Sonuncu güllə” | Bayram Həsənov “İki bala” |
| B | Mehdi Hüseyn “Odlu qılınc” | Ənvər Məmmədxanlı “Qızıl qönçələr” |
| C | Mirzə İbrahimov “Azad” | Elçin Hüseynbəyli “Nəvə” |
| D | Bəxtiyar Vahabzadə “Vətəndaş” | Mir Cəlal “Bahar” |
| E | Səməd Vurğun “Azərbaycan” | Süleyman Sani Axundov “Nurəddin” |

**16. Aşağıdakılardan biri XI–XII əsrlər Azərbaycan ədəbiyyatının İntibah dövrü kimi səciyyələnməsinə əsas verən amilləri seçin:**

1. Əsərlərin sadəcə hökmdar mədhinə həsr olunması
2. Xalqın milli-mənəvi varlığının yüksək sənətkarlıqla təsviri
3. Humanizm, ədalət və böyük sevgi kimi idealların geniş tərənnüm edilməsi
4. Əsərlərin yalnız fars dilində yazılması
5. Epik mənzum ədəbiyyatın güclü inkişafı və mövzu genişliyi ilə
6. Ədəbi fəaliyyətin sarayla məhdudlaşması

A) 1, 5, 6 B) 1,4,6
C) 2, 3, 5 D) 2,3,4,5 E) 1,2,3,6

**17. M.Füzulinin “Söz” qəzəlində hansı beyt “Danışmaq gümüşdürsə, susmaq qızıldır” deyiminə uyğun gələ bilər:**

A) Xalqa ağzın sirrini hər dəm qılır izhar söz,
Bu nə sirdir kim, olur hər ləhzə yoxdan var söz.

B) Ver sözə ehya ki, tutduqca səni xabi-əcəl,
Edə hər saat səni ol uyqudan bidar söz.

C) Bir nigari-ənbərin xətdir könüllər almağa,
Göstərər hərdəm niqabi-qeybdən rüxsar söz.

D)Xazini-gəncineyi-əsrardır, hər dəm çəkər,
Rişteyi-izharə min-min gövhəri-əsrar söz.

E) Gər çox istərsən, Füzuli, izzətin, az et sözü
Kim, çox olmaqdan qılıbdır çox əzizi xar söz.

**18. Çingiz Aytmatovun “Dəniz kənarı ilə qaçan alabaş” əsəri ilə bağlı verilən hansı fikirlərin yeri dəyişdirilərsə, cədvəl düzgün olar?**

| **Doğru** | **Yanlış** |
|---|---|
| 1.“Dəniz kənarıyla qaçan Alabaş” əsərində Alabaş Kiriskin itinin adı idi. | 4. Nayman ana əsərin baş qəhrəmanıdır. |
| 2.Əsərdə “Ağıl göydən – sərištə uşaqlıqdan, Çörək gətirməyən oğul nəslə yükdür” kimi atalar sözləri işlənmişdir. | 5. Kirisk ömründə birinci dəfə idi ki, peşəkar ovçularla əsl ova gedirdi. |
| 3.Qayıqda 3 ovçu və bir oğlan uşağı vardı. | 6. Əsərdə bəhs edilən Nivx kayakı – Maral və ya itlərə qoşulan xizəkli arabalardır. |

A) 1-5 B) 2-6 C) 3-4

D) 1-4 E) 2-5

**19. 2025-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev hansı ədiblərimizin yubileyinin qeyd edilməsi ilə bağlı sərəncam imzalamışdır?**

*1. Cəlil Məmmədquluzadə* *2. Xəlil Rza Ulutürk*
*3. Bəxtiyar Vahabzadə* *4. Seyid Əzim Şirvani*
*5. Məmməd Araz* *6. Mikayıl Müşfiq*

A) 1, 2 B) 3, 4 C) 5, 6 D) 3, 5 E) 2, 6

**20. “Dərzi şagirdi Əhməd” nağılında Firəng padşahının üçüncü sualı, dərzi şagirdi Əhmədin Şah Abbasdan birinci istəyi nə idi?**

A) Firəng padşahı – atların yaşını təyin etmək
Əhməd – Pəri xanımın ona verilməsini

B) Firəng padşahı – almaların builki, bildirki, inişilki olduğunu təyin etmək
Əhməd – Pəri xanımla nikah bağlamasını

C) Firəng padşahı – oğlanların və qızların müəyyən edilməsi
Əhməd – Pəri Soltanla toy eləmək

D) Firəng padşahı – almaların builki, bildirki, inişilki olduğunu təyin etmək
Əhməd – Pəri xanımın ona verilməsini

E) Firəng padşahı – atların yaşını müəyyən etmək
Əhməd – Pəri xanımla nikah bağlamasını